**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**
**ALİ ATTESTASİYA KOMİSSİYASI RƏYASƏT HEYƏTİNİN**
**9 dekabr 2022-ci il tarixli**
**QƏRARI**

"Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin və "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 26 noyabr tarixli 1888 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin bəzi qərarlarında dəyişiklik edilsin:

1. Komissiyanın Rəyasət Heyətinin 29 oktyabr 2019-cu il tarixli qərarı ilə təsdiq edilmiş "Dissertasiya şuralarının yaradılması və fəaliyyətinin təşkili barədə Təlimat" üzrə:

1.1. 2.12-ci bənddə "üç" sözü "iki" sözü ilə, "beş" sözü "dörd" sözü ilə əvəz edilsin;

1.2. 4.19-cu bənddə "elmi katibləri," sözlərindən sonra "elmi seminarların sədrləri," sözləri əlavə edilsin;

1.3. 4.29-cu bənddə ikinci və üçüncü hallarda "dissertasiya və" sözləri çıxarılsın;

1.4. 5.4-cü bənddə "üç" sözü "iki" sözü ilə, ikinci halda "beş" sözü "dörd" sözü ilə əvəz edilsin;

1.5. 6.4-cü bənd çıxarılsın;

1.6. 6.10-cu bənd aşağıdakı redaksiyada verilsin:

"Gizli səsvermə zamanı dissertasiya şurasının iclasında iştirak edən müdafiənin keçirildiyi ixtisas üzrə dissertasiya şurasının üzvləri və dissertasiya şurasının digər üzvləri forması Komissiya tərəfindən müəyyən edilən bülletenlər vasitəsilə səs verirlər.";

1.7. 6.14-cü bənddə "şura" sözü "iclasda iştirak edən dissertasiya şurası" sözləri ilə əvəz olunsun və həmin bəndə "dissertasiya şurasının" sözlərindən sonra "iclasda iştirak edən" sözləri əlavə edilsin;

1.8. 6.15-ci bəndin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Hesablama komissiyasının protokolunda əvvəl müdafiənin keçirildiyi ixtisas üzrə dissertasiya şurası üzvlərinin səsverməsinin nəticəsi, sonra dissertasiya şurasının digər üzvlərinin səsverməsinin nəticəsi göstərilir.".

1.9. Təlimata dissertasiyanın ingilis dilində titul səhifəsini müəyyən edən yeni "Əlavə 1.3.2" əlavə edilsin;

1.10. "Avtoreferatın üz qabığının nümunəsi"nin (Təlimata Əlavə 1.4, Əlavə 1.4.1 və Əlavə 1.4.2) üçüncü səhifəsində müvafiq olaraq "Dissertasiya və", "диссертации и" və "dissertation and its" sözləri çıxarılsın;

1.11. “Elmi dərəcə iddiaçısı tərəfindən dissertasiya şurasına təqdim edilən sənədlərin Siyahısı”nın (Təlimata Əlavə 1.5) 9-cu bəndi aşağıdakı redaksiyada verilsin:

“9. Fəlsəfə doktoru imtahanları üzrə onların nəticəsini özündə əks etdirən müvafiq şəhadətnamələr (ixtisas fənni üzrə şəhadətnamələr imtahan protokolunun surəti ilə birlikdə təqdim edilir) – 2 nüsxə;”

1.12. “Dissertasiyaların avtoreferatlarının göndərilməli olduğu təşkilatların Siyahısı”nın (Təlimata Əlavə 1.6) Qeyd hissəsinin 1-ci və 3-cü bəndlərində birinci halda “Azərbaycan” sözündən sonra “və ya ingilis” sözləri əlavə edilsin;

1.13. “Dissertasiya şurasında gizli səsvermənin keçirilməsi üçün yaradılmış hesablama komissiyasının Protokolu”nda (Təlimata Əlavə 1.9) müvafiq olaraq “Birinci mərhələdə” və “İkinci mərhələdə” sözləri çıxarılsın;

1.14. “Fəlsəfə doktoru elmi dərəcəsi verilməsi haqqında Arayış”da (Təlimata Əlavə 1.10) və “Elmlər doktoru elmi dərəcəsi verilməsi haqqında Arayış”da (Təlimata Əlavə 1.10.1) müvafiq olaraq “həmmüəllifsiz olmaqla”, “Birinci mərhələdə” və “İkinci mərhələdə” sözləri çıxarılsın;

1.15. “Elmi dərəcə verilməsi üçün dissertasiya şurası tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasına təqdim edilən sənədlərin Siyahısı”nın (Təlimata Əlavə 1.14) 8-ci bəndi aşağıdakı redaksiyada verilsin:

“8. Fəlsəfə doktoru imtahanları üzrə onların nəticəsini özündə əks etdirən müvafiq şəhadətnamələr (ixtisas fənni üzrə şəhadətnamələr imtahan protokolunun surəti ilə birlikdə təqdim edilir);”.

2. Elmi adlar verilməsi üzrə nəzərdə tutulan müvafiq sənədlər üzrə:

2.1. “Dosent elmi adının elmi-pedaqoji fəaliyyətə görə verilməsi haqqında Arayış”da (Əlavə 3.4 və Əlavə 3.4.1) müvafiq olaraq “, əməkdar mədəniyyət işçisi” sözləri çıxarılsın;

2.2. “Dosent elmi adının elmi-pedaqoji fəaliyyətə görə verilməsi haqqında Arayış”da (Əlavə 3.7) müvafiq olaraq “, əməkdar mədəniyyət işçisi” və “, onlardan həmmüəllifsiz” sözləri çıxarılsın;

2.3. “Dosent elmi adının elmi-pedaqoji fəaliyyətə görə verilməsi haqqında Arayış”da (Əlavə 3.9) müvafiq olaraq “, onlardan həmmüəllifsiz” sözləri çıxarılsın;

2.4. “Professor elmi adının elmi fəaliyyətə görə verilməsi haqqında Arayış”da (Əlavə 3.10) aşağıdakı məzmunda yeni abzaslar əlavə edilsin:

“İddiaçı müvafiq ixtisas üzrə _______________ xarici akademik nəşriyyatda
(nəşriyyatın adı)

həmmüəllifsiz, xarici dildə, elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin elmi şurasının qərarı ilə çapa tövsiyə edilmiş, elmlər doktoru dissertasiyasını təkrarlamayan və həcmi _____________işarədən ibarət ______ monoqrafiya nəşr etdirmişdir.
(işarə sayı) (sayı)

İddiaçının __________________ beynəlxalq xülasələndirmə və indeksləmə
(sistemlərin (bazaların) adı)

sistemlərində (bazalarında) H-indeksi _____."
(sayı)

2.5. "Professor elmi adının elmi-pedaqoji fəaliyyətə görə verilməsi haqqında Arayış"da (Əlavə 3.12 və Əlavə 3.18) müvafiq olaraq ", əməkdar mədəniyyət işçisi" sözləri çıxarılsın;

2.6. "Professor elmi adının elmi fəaliyyətə görə verilməsi haqqında Arayış" (Əlavə 3.15) üzrə:

2.6.1. altıncı abzasda "üzrə" sözündən sonra nəşriyyatın adı göstərilməklə "xarici akademik nəşriyyatda" sözləri əlavə edilsin;

2.6.2. səkkizinci abzasda "(o cümlədən həmmüəllifsiz)" sözləri çıxarılsın;

2.6.3. aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"İddiaçının __________________ beynəlxalq xülasələndirmə və indeksləmə
(sistemlərin (bazaların) adı)
sistemlərində (bazalarında) H-indeksi _____.";
(sayı)

2.7. "Professor elmi adının elmi-pedaqoji fəaliyyətə görə verilməsi haqqında Arayış" (Əlavə 3.16) üzrə:

2.7.1. altıncı abzasda "üzrə" sözündən sonra nəşriyyatın adı göstərilməklə "xarici akademik nəşriyyatda" sözləri əlavə edilsin;

2.7.2. doqquzuncu abzasda "(o cümlədən həmmüəllifsiz)" sözləri çıxarılsın;

2.7.3. aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"İddiaçının __________________ beynəlxalq xülasələndirmə və indeksləmə
(sistemlərin (bazaların) adı)
sistemlərində (bazalarında) H-indeksi _____.";
(sayı)

2.8. "Professor elmi adının elmi-pedaqoji fəaliyyətə görə verilməsi haqqında Arayış"da (Əlavə 3.21, Əlavə 3.22 və Əlavə 3.23) müvafiq olaraq ", onlardan həmmüəllifsiz" sözləri çıxarılsın.

3. Komissiyanın Rəyasət Heyətinin 29 oktyabr 2019-cu il tarixli qərarı ilə təsdiq edilmiş "Dissertasiyanın tərtibi Qaydası" üzrə:

3.1. 2.1-ci hissədə ikinci halda "və" bağlayıcısı vergül işarəsi ilə əvəz edilsin və "Əlavə 1.3.1" sözlərindən sonra "və Əlavə 1.3.2" sözləri əlavə edilsin.

4. Komissiyanın Rəyasət Heyətinin 29 oktyabr 2019-cu il tarixli qərarı ilə təsdiq edilmiş "Avtoreferatın tərtibi Qaydası" üzrə:

4.1. aşağıdakı məzmunda yeni 13-1-ci bənd əlavə edilsin:

"Dissertasiya ingilis dilində yazıldıqda, onun avtoreferatı ingilis dilində 100, Azərbaycan dilində 20 nüsxə çap edilir.";

4.2. 17-ci bənddə "ingilis dilində bir," sözlərindən sonra "ingilis dilində yazıldıqda, onun ingilis dilində iki, Azərbaycan dilində bir" sözləri əlavə edilsin.

5. Komissiyanın Rəyasət Heyətinin 29 sentyabr 2020-ci il tarixli qərarı ilə təsdiq edilmiş “Fəlsəfə doktoru imtahanlarının keçirilmə Qaydası” üzrə:

5.1. 1.4-cü bəndin üçüncü abzasında “ingilis” sözündən əvvəl “dissertasiyanı Azərbaycan və ya rus dillərində yazan və müdafiə edən iddiaçılar üçün” sözləri əlavə edilsin;

5.2. 1.4-cü bəndin dördüncü abzasında “əcnəbi” sözündən əvvəl “dissertasiyanı Azərbaycan dilində yazan və müdafiə edən” sözləri əlavə edilsin.

6. Komissiyanın Rəyasət Heyətinin 17 yanvar 2020-ci il tarixli qərarı ilə təsdiq edilmiş “Ekspert şuraları haqqında Əsasnamə”dən 4.27-ci bənd çıxarılsın.